# Sənət mübarizləri

XIX əsrin 70-ci illərindən bəri uzun, çətin və şərəfli yol keçən milli teatrımızın tarixinə nəzər salanda Azərbaycan Xalq Cümhuriyyəti dövrü xüsusi qeyd olunur. Bu illərdə milli teatrın fəaliyyətində böyük canlanma baş vermiş, onun inkişafında mühüm keyfiyyət dəyişiklikləri olmuş, repertuara Azərbaycan tarixi, milli azadlıq mübarizələri ilə bağlı yeni əsərlər daxil edilmişdir. İctimai həyatda teatrın rolu xeyli artmışdır. Tədqiqatçıların fikrincə, teatr sənəti XX əsrin əvvəllərində mədəniyyətin ən sürətlə irəliləyən sahələrindən olmuşdur. O dövrdə çalışan insanlar azadlıq idealları ilə aşılanmış sənət mübarizləri idilər. Onlar istəyirdilər ki, xalqın yeni həyat uğrunda mübarizələrinə kömək etsinlər, inkişafın zəruri tələbləri böyük iradə ilə müdafiə olunsun. Bir faktı qeyd edək ki, əsası 1873-cü ildə qoyulan peşəkar Azərbaycan teatrı ilk dəfə cümhuriyyət dövründə dövlət teatrı statusu almışdı. Hökumət teatrın ideya-bədii səviyyəsini qaldırmaq və onu təşkilati cəhətdən möhkəmləndirmək məqsədilə pərakəndə teatr truppalarının birləşdirilməsinə çalışırdı. O zaman aktyorların yaradıcılığının inkişafına, onların peşəkarlığının yüksəldilməsinə qayğı göstərən Müsəlman Artistləri Cəmiyyəti yaradılır. Truppalar milli və dünya dramaturgiyasının ən yaxşı əsərlərini uğurla tamaşaya qoymağa başlayırlar.





Cümhuriyyət dövründə Bakıda fəaliyyətini genişləndirən ilk truppa "Hacıbəyli qardaşları" olmuşdur. Burada Hacıağa Abbasov, Mirzağa Əliyev, Cəlil Bağdadbəyov, Əhməd Ağdamski, Hüseynqulu Sarabski, Sidqi Ruhulla, Hüseyn Ərəblinski, Muxtar Məhəmmədzadə, Ələkbər Hüseynzadə, Mirmahmud Kazımovski, Sənnur xanım, Mina xanım, Məxfurə xanım və başqaları kimi tanınmış sənətkarlar həftədə üç gün dram, komediya, opera və operetta tamaşaları göstərir, repertuarlarını zənginləşdirirdilər. "Hacıbəyli qardaşları" teatr truppasında Ə.Haqverdiyevin "Dağılan tifaq", "Pəri-cadu", "Ağa Məhəmməd Şah Qacar", Şəmsəddin Saminin "Gaveyi-ahəngər", S.Qənizadənin "Axşam səbri xeyir olar", C.Cabbarlının "Ədirnə fəthi", İsa bəy Aşurbəylinin "Azərbaycan" kimi dram əsərləri, Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan", "O olmasın, bu olsun", "Əsli və Kərəm", "Leyli və Məcnun", "Şah Abbas və Xurşid Banu", Zülfüqar Hacıbəylinin "Aşıq Qərib", "Evliykən subay", Müslüm Maqomayevin "Şah İsmayıl" kimi opera və operettaları dəfələrlə səhnəyə qoyulmuş, böyük alqışlarla qarşılanmışdır.

Cümhuriyyət hökumətinin teatrın inkişaf etdirilməsində məqsədyönlü işlərindən biri də Mayılov qardaşları teatr binasının ədalətli qiymətlə milli teatrımız üçün alınması barədə qərarı olmuşdur. 1918-ci il oktyabrın 9-da teatr işi Maarif Nazirliyinin sərəncamına verilir. Oktyabrın 18-də isə hökumət dövlət teatrının təşkili haqqında xalq maarifi nazirinin məruzəsini dinləyir. Bakıda Milli Dövlət Teatrının yaradılmasının vacibliyi və bunun üçün Mayılov qardaşları teatr binasının nazirliyin sərəncamına verilməsi tövsiyə edilir. Azərbaycan səhnə sənətinin xadimləri yeni yaradılmış teatrın tərkibinə daxil olurlar. Dövlət teatrı ilk dəfə 1918-ci il noyabrın 4-də Nəriman Nərimanovun "Nadir şah" faciəsinin tamaşası ilə açılır.

1919-cu il avqustun 22-də Bakı Türk Aktyorları İttifaqı İdarəsi ilə "Hacıbəyli qardaşları" müdiriyyətinin birgə iclasında "milli səhnəmizi daha müntəzəm hala salmaq" məsələsi müzakirə edilir və dörd şöbədən ibarət "bədaye kursları"nın təsisi qərara alınır. Onun dram şöbəsinə Abbas Mirzə Şərifzadə, Hüseynqulu Sarabski, komediya şöbəsinə Mirzağa Əliyev, musiqi şöbəsinə Zülfüqar və Üzeyir bəy Hacıbəyli qardaşları, Müslüm Maqomayev, Qurban Pirimov, ədəbiyyat şöbəsinə isə Əlabbas Müznib və Rza Zəki müəllim təsdiq olunurlar.

Nazirlər Şurası 1919-cu ilin noyabrında keçirilən iclasda maarif nazirinin türk opera dram teatrının təşkili haqqında məruzəsini dinləyir, Dövlət Türk Opera-Dram Teatrının yaradılmasını nəzərdə tutan qanun layihəsini bəyənir və dövlət teatrının bərpası üçün 300 min 605 manat vəsait ayırır. Beləliklə, Azərbaycan Türk Teatrı milliləşdirilir və dövlətin himayəsinə verilir. Bundan başqa, parlament teatr kollektivləri və mədəni müəssisələrin üzərinə qoyulmuş vergiləri yarıbayarı azaldır. 1919-cu il oktyabrın 24-də teatr mövsümünü Azərbaycan Dövlət Dram Teatrının opera və operetta truppası açır. Parlament və hökumət üzvlərinin iştirak etdiyi mərasimdə İsa bəy Aşurbəyovun "Azərbaycan" pyesi böyük uğurla oynanılır.

O zaman xeyriyyə tamaşalarının təşkili də ənənəyə çevrilir. Bu işdə Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları truppası xüsusi fəallıq göstərir. Azərbaycanın mədəni həyatında teatr çox böyük rol oynayır. Rəsmi qəzetlərdə teatr tamaşaları haqqında elanlar, rolların ifaçıları barədə məlumatlar və digər zəruri informasiyalar çap olunur.

Cümhuriyyət dövründə Naxçıvan teatrı da xüsusi inkişaf yolu keçmişdir. Bu illərdə Rza Təhmasibin rejissorluğu ilə Cəlil Məmmədquluzadənin "Ölülər" komediyası tamaşaya qoyulur və bu, Naxçıvanın mədəni həyatında böyük bir hadisəyə çevrilir. Görkəmli aktyor Rza Təhmasibin və mollanəsrəddinçi şair Əliqulu Qəmküsarın böyük məharətlə yaratdıqları İsgəndər və Şeyx Nəsrullah obrazları Azərbaycanın teatr tarixinə qızıl hərflərlə yazılır. Azərbaycan Xalq Cümhuriyyəti illərində maarif xadimləri, yaradıcı ziyalılar, ədib və mühərrirlər - Ə.Haqverdiyev, Ü.Hacıbəyli, Seyid Hüseyn, Əli İbrahim, Mehdi bəy Hacınski, Hacıibrahim Qasımov və başqaları teatr tənqidi ilə məşğul olur, bu sahədə baş verən prosesləri izləyir, yeni tamaşalar, rejissor işi və aktyor rolu barədə fikirlər söyləyir, teatr sənətinin inkişaf problemlərinə dair məqalələr dərc edirdilər. İctimai xadim, publisist Mirzəbala Məmmədzadə "Hökumət və teatro" məqaləsində milli və qüdrətli bir səhnəyə malik olmaq üçün yüksək səviyyəli əsərlər meydana qoya biləcək yazıçıların, həmçinin həmin səhnə əsərlərini mükəmməl sənətkarlıqla xalqa çatdırmağa qadir olan peşəkar aktyorların yetişdirilməsini zəruri sayırdı. Bu gün cümhuriyyət dövrü ziyalılarının yaratdığı əsərləri, onların rast gəldiyi maneələri və müqavimətləri, ömürlərinin çox da asan olmayan yollarını araşdıranda görürük ki, bu insanlar həyat dəryasında necə böyük fırtınalara, tufanlara sinə gərməli olub, hansı ruhi sarsıntıları, mənəvi əzab və iztirabları aradan qaldırıblar. Buna qorxmaz ürək, böyük hünər gərəkdir ki, həmin çətin yolu fəlakətə uğramadan keçə biləsən.

Azərbaycan teatrı milli opera sənətinin yaranmasında da xüsusi rol oynamış və ilk əsərlər məhz bu teatrın səhnəsində tamaşaya qoyulmuşdur. Ü.Hacıbəyli "Leyli və Məcnun" operasından sonra "Şeyx Sənan", "Əsli və Kərəm", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşid Banu" kimi muğam operalarını yaratmışdır. 1919-cu ildə "Dağıstan" ("Qaytağı"), tərəkəməsayağı "Azərbaycan" adlı xoreoqrafik əsərlərini bəstələmişdir. Dahi bəstəkar teatrın, o cümlədən musiqili teatrın xalqın maariflənməsində, bədii zövqünün inkişafında oynadığı böyük rolu nəzərə alır və opera yaradıcılığı ilə yanaşı öz fikirlərini mətbuatda açıqlayırdı. Üzeyir bəy ilə çiyin-çiyinə çalışan böyük sənətkarlardan biri də Müslüm Maqomayev idi. Onun 1916-cı ildə yazmış olduğu "Şah İsmayıl" operası məhz 1919-cu ildə AXC dövründə səhnəyə qoyulmuş və böyük uğur qazanmışdır.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xanəndələr və el aşıqları müstəsna rol oynamışlar. Gözəl səsi və sənəti ilə bütün Qafqazda və Yaxın Şərqdə məşhur olan Cabbar Qaryağdıoğlu, Keçəçi Məhəmməd, Seyid Şuşinski, Məcid Behbudov və başqaları ölkənin mədəni həyatında, el şənliklərində yaxından iştirak edirdilər. Xanəndəlik sənətinin yüksəlişi ilə əlaqədar olaraq çalğı musiqisi də inkişaf edir, Məşədi Cəmil Əmirov, Qurban Pirimov və digər ustad tarzənlər yetişirdi.

Qurulduğu gündən dövlət rəmzlərinin yaradılmasına xüsusi əhəmiyyət verən cümhuriyyət hökuməti tərəfindən 1918-ci il noyabrın 9-da türkləşməyin, islamlaşmağın və müasirləşməyin rəmzi kimi mavi, yaşıl və qırmızı rənglərdə, ağ aypara və səkkizguşəli ulduzdan ibarət milli bayrağın təsdiq edilməsi barədə qərar qəbul olundu. Eyni zamanda dövlət gerbi və möhürünün layihələrini yaratmaq üçün müsabiqə elan edildi. Bu rəmzlərin hazırlanmasına ilk peşəkar heykəltəraş Zeynal Əlizadə cəlb olunmuşdu. Onun layihəsinə əsasən buraxılan döş və xatirə medallarında parlament binası, bayraqlar, aypara, səkkizguşəli ulduz, günəşin doğması, gül çələngləri həkk olunmuşdu. Bu dövrdə milli rəssamlıq sənətinin inkişafına xüsusi diqqət yetirilirdi. Karikaturaçı rəssam Əzim Əzimzadə, rəssam Bəhruz Kəngərlinin əsərlərində dövrün problemləri ayna kimi əks etdirilir, cəhalət, nadanlıq, erməni cəlladlarının vəhşilikləri ifşa olunurdu. Əzim Əzimzadə "Otello", "Aşıq Qərib", "Dəmirçi Gavə" tamaşalarının bədii tərtibatı üçün dekor və geyim eskizləri hazırlamışdır. Bəhruz Kəngərli Naxçıvan teatrında "Hacı Qara", "Ölülər", "Dağılan tifaq", "Pəri-cadu" və s. tamaşalara tərtibat vermişdir. Bu dövrdə rəssamlar plakat sahəsində də diqqətəlayiq əsərlər yaratmışlar.

Cümhuriyyət illərində memarlıq və heykəltəraşlıq sənəti sahəsində də müəyyən tədbirlər həyata keçirilmişdir. 1918-ci ildə Bakının erməni-daşnak quldurları tərəfindən yandırılmış binaları - Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbi, "İsmailiyyə" AXC dövründə şəhərin baş memarı vəzifəsində çalışan görkəmli memar Zivər bəy Əhmədbəyovun layihələri əsasında bərpa olunmuşdu. Erməni millətçiləri tərəfindən dağıdılmış Şamaxı şəhərini bərpa etmək üçün "Yeni Şirvan" cəmiyyəti təsis olunmuşdu. "İslam incəsənətini sevənlər və quranlar" cəmiyyəti yaradılmışdı. 1920-ci il yanvarın 1-də Türk Aktyorları İttifaqının yığıncağında peşəkar milli teatr sənətinin banilərindən olan Hüseyn Ərəblinskinin qəbri üzərində monumental abidənin ucaldılması qərara alınmışdı.

Ölkənin mədəni yüksəlişində kadrların həlledici rolunu dərk edən cümhuriyyət hökuməti müxtəlif sahələr üzrə ali təhsilli mütəxəssislərin hazırlanmasına xüsusi qayğı göstərirdi. Azərbaycan parlamentinin 1919-cu il 1 sentyabr tarixli qərarı ilə 100 nəfər gənc Avropanın ali məktəblərində təhsil almağa yola salınmışdı. Onların içərisində rəssamlıq, heykəltəraşlıq, memarlıq ixtisaslarına yiyələnmək üçün göndərilən tələbələr də vardı. Azərbaycan ziddiyyətli, gərgin hadisələrin içərisində olduğu həmin illərdə böyük məhrumiyyətlərə, repressiyalara və soyqırımlarına məruz qalmasına baxmayaraq, yaşayıb yaratdı, inkişaf etdi, böyük nailiyyətlər qazandı, iqtisadi, elmi, mədəni yüksəlişə nail oldu.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*